

**XATİRƏ RƏHİMBƏYLİ**

*Cəsurluğun qürurum,kədərimdi həlakın,*
*Cismin məzarda saxlı,ruhun cənnətdə sakin.*
*"Əzizim,Vətən yaxşı...",-deyim,bayatı çəkim,*
*Yoxsa məzarın üstdə çalım layla,şəhidim?*

*Yurdun hər qarışında sənin haqqı-sayın var,*
*Palıdlaşan  vüqarın,çinarlaşan boyun var.*
*Udduğumuz havada,suda sənin payın var,*
*Layiqiksə,haqqını halal eylə,şəhidim.*

*Keçdin taleyimizdən,keçdin ildırımsayaq,*
*Yağdırdın alovunu düşmən üstə...yenə yağ...*
*Adın - müsəlləh əsgər,ruhun daima oyaq,*
*İgidləri qisasa çağır,hayla,şəhidim.*

*Zamanları adlayar,əsrləri aşarsan,*
*Gözlərdə,könüllərdə elə qaynar,daşarsan.*
*Bizlər gəldi-gedərik,sən əbədiyaşarsan,*
*Bizdən gələcək nəslə salam söylə,şəhidim.*
*Layiqiksə,haqqını halal eylə,şəhidim.*

***

*Mən azadlıq istəyirəm,*
*Sevməyin,məni sevməyin.*
*Dinləyin coşan kədəri,*
*Qaynayan qəmi sevməyin,*
*Mən azadlıq istəyirəm!*

*Nəfsinizin qorxusundan,*
*İçimə sıxıldim axı.*
*Yol verin, çıxım özümdən ,*
*İçimdə boğuldum axı,*
*Mən azadlıq istəyirəm!*

*Nə sevdiklərim arxamdı,*
*Nə sevmədiklərim yağım.*
*Mən hansı dağa söykənim,*
*Görsün içimdəki dağı--*
*Mən azadlıq istəyirəm!*
*Doğulandan qəhər uddum,*
*Mənə də bir nəfəs verin.*
*Ya tam kəsin nəfəsimi,*
*Ya da arzuma səs verin --*
*Mən azadlıq istəyirəm!*

*Gözlərim işiq istəyir ,*
*Ürəyim nur umur mənim.*
*Sıxlaşır başınız üstdə,*
*Gözlərim qurumur mənim.*
*Baxmayın susub durmuşam,*
*Ürəyım kirimir mənim,*
*Mən azadlıq istəyirəm!*

*Qanlıdı sizlə ürəyim*
*Bu qanlı yaraya baxın*
*Açın haqqın qapısını*
*Allaha tanrıya baxın --*
*Mən azadlıq istəyirəm!*

***

*Ürəyimə damır, eynimə gəlir,*
*Taleyin üzünə güləcək, Vətən!*
*Hər kəsə məlumdur şanlı tarixin,*
*Daha xoş olacaq gələcək, Vətən!*

*Alıb qaçırdılar "Sarı gəlin"i,*
*Qırdılar Şuşanın incə belini.*
*Əsir götürdülər Göyçə gölünü,*
*Nə gül eynimədi, nə çiçək, Vətən!*

*Qanımızda varsa, Tomrisin südü,*
*Qoymaz ki, qul olaq Babək öyüdü!*
*Biləcək axır ki Türk olmaq nədi,*
*Düşmən əvvəl-axır biləcək, Vətən!*

*Həsrətin eləcə teyləyir bizi,*
*Qəm dindən-imandan eyləyir bizi.*
*"Ey Türk, özünə dön!" haylayır bizi,*
*Türk özünə bir gün gələcək, Vətən.*

## SEVGİ DƏ DİNDİ

*Duzlu sular qoyub qəmin bağrina*
*Duzlayıb yığıram sənsiz günləri .*
*Əsgər balasısan ayrılıqların*
*Ümidəm , nə vaxtsa dönərsən geri.*

*"Mən-sən" eşqimizə "o" qara kağız*
*Göynədir könlümü üçkünc məktublar .*
*Naümid qoymuam qəlbi;əsgərin*
*Partizan olmağı ,əsirliyi var ...*

*Axıtdın adımıyaralarından ,*
*Oxşadı ruhunu şəfqətin əli .*
*Bulaq eşqimizi silib gözündən*
*Axdı ürəyinə tərsa gözəli ...*

*Sən ömrü borclusan tərsa qızına ,*
*Mən dönə bilmirəm --sevgi də dindi..*
*Bütün istəklərin sərkərdəsi yar,*
*Bu çaşqin qoşunla neyləyim indi ?!*

*Duzlu sular qoyub qəmin ağrına ,*
*Duzlayıb yığıram sənsiz günləri .*
*Əsgər balasısanayrılıqların*
*Ümidəm nə vaxtsa dönərsən geri;*
*Ömürlük sevmir ki , tərsa gözəli!...*

***

*Bozarmış əyninə baxıb ömrünün*
*Səhərdən axşama qəm çeynyirsən*
*Sözlə ovuduram mən ürəyimi ,*
*Bəs dilsiz əzabla sən neynəyirsən ?*

*Qara gözlərinə qələm çəkən qız ,*
*Alın yazısına qələm çəkilməz!*
*Qanına işləyib bu həsrət , gözəl ,*
*Sarılıq qandasa, xəstə dirilməz ,*

*Ahh,səndən ötrüymüş müharibələr*
*Qismətin hərb elan edimiş sənə!*
*Hanı oğul gəzən o qəfil güllə ,*
*Ya qəminə dəysin ,ya da sinənə!*

*Solğun yanağına yükdü qırmızı,*
*Bəxtinin üzündə göz yaşıdır , sil !*
*Saçından asılmış qəmli bir gözəl ,*
*Bu gün tarix çəkən ən real şəkil!!!*

***

*Sevgilər həmişə haqq olmur axı,*
*bezdirmişəm səni sədaqətimlə.*
*Ah, mənə, ilanım, özün buğda dər,*
*kim könüllü gedər öz cənnətndən?!*

*Cənnət xəyalları qov yaddaşımdan,*
*mənə bu dünyanın əzabını ver!*
*Ah, sənə istəyim ta asilikdir,*
*əlimə dinlərin kitabını ver!*
*Sən axı zalımsan?*
*Olma sevimli,*
*zülmün qılıncıyla aç yollarımı!*
*Nə yer üzü cənnət, nə sən hurisən -*
*kəndiri kəs, sındır qanadlarımı!*
*Adına qurduğum bu zərif saray*
*döndü daş zindana sərt həsrətindən...*
*Ah, mənə, ilamım, özün buğda dər,*
*kim könüllü gedər öz cənnətndən?!*

***

*Sən mənə taleyin zülüm payısan.*
*Göynəyən könlümü bir üfləsən sən...*
*Ruhumun qısılıb dustaq qaldığı*
*İkicə kəlmədən özgə nəsən sən?*

*Gördünmü quruyan qaxac ömrümü?*
*Cismimi qovuran bu sac ömrümü?*
*Bu kədər yarpaqlı ağac ömrümü*
*noolar, bircə kərə silkələsən sən?!*

*Namərd quyulardı, xəbərçi qamış.*
*Könlümdə bir zərrə inam qalmamış...*
*Etibarı perik, ümidi sınmış*
*ürək nələr çəkir...*
*Nə biləsən sən...*

***

*Yaman daş- kəsəkdi ömrün yolları,*
*Gözlərin yol çəkmir ta mühəndisim ?*
*Kəsib cingiltisi qulaqlarının ,*
*Çatmir daha sənə qəlbin zəng səsi ?*

*Qatıb qabağına zamanın seli,*
*Dünyanın nə qədər kövrəkləri var...*
*Keçib gələmmədim ,dövrəmdə borcun ,*
*Qəribim ,o qədər xəndəkləri var!!!*

*Nə qılınc qolum var, nə xəncər əlim ,*
*Dustaq bəxtin nedim ucqar köyündə?!*
*Götürüb asmışam gözümü göydən ,*
*Çıx yellən duamın yelləncəyində...*

***

*Hər kəs Tanrı önündə*
*Azaddısa,hürdüsə,*
*Yerdəki qırğın nədir,*
*Göydə ALLAH birdisə?!!*
*Nə saralıb nə də sol,*
*Öyrən. və arxayın ol;*
*Qəbir Haqqa gedən yol,*
*Qapıdısa ,dərdisə...*
*Hər açılan bir sabah*
*Bir aldanış,bir günah....*
*Niyə dağılmır. axı*
*Bu zalım dünya,ALLAH,*
*Şeytanla əlbirdisə?!*

ədalət.- 2022.- 2 aprel.- S.7.